# Ünvansız ideyaların işığı

Könlümün sevgili məhbubu mənim... Bu kəlam nə ifadə edə bilər?- əlbəttə könüldən söhbət gedirsə, ən ülvi hisslərdən. Ən ülvi hisslər isə yaşam tərzində ona həyat verən ana və anaların da həqiqi mənada məskunlaşdığı ocaq-torpaqdır. Bu torpaqlardan başlayır vətən. Çünki vətən sözünün elə hərfi mənası da qərar tutduğun yer deməkdir. Vətən sözü ərəb sözüdür, mənası da məskunlaşdığın məkan, ölkə deməkdir. Qərar tutulan yerdə insanlar - bir - birinə qan bağlılığı olanlar birgə yaşayr və illər ötdükcə onlar nəsilbənəsil çoxalır, bir toplum halda yaşayırlar. Bax, bu insanlar yaşadıqları məkanı həmişə müdafiyə edir, özlərinə xas adət ənənələri qoruyub saxlayırlar. Bir məkanın insanları vətəndaşlar adlanır, yəni bu məkanın insanları, vətəndaşlar isə aid olduqları torpağı, özlərinə xas olan adət-ənənələri, sərvətləri qoruyur, onlar uğrunda can verməyi belə üstün tuturlar. Onlara həyat bəxş edən anaları necə sevirlərsə o ananın yaşadığı məkanı da o sevgi ilə sevər və müdafiyə edərlər. Bəli, Vətən insanın soykökünün, əcdadlarının tarixi mirasıdır. Elə tarix də Vətənlə yaranıb. Vətəndaşlar bir xalq adlanıbsa, o xalqın keçmişindən ta bugünədək olan həyat salnaməsi də tarix adlanıb, Bu tarixi isə onun xalqı, xalqı xalq edən vətəndaşların mübarizəsi, həyat tərzi formalaşdırmışdır.

Tarix mübarizələrlə doludur.Tarix Vətənin xronikasıdır. Bu xronika illərin yaddaqalan hadisələrinin inkişafıdır.

Zəngin bir tarixi vardır ölkəmizin. Ən son tarix isə bütün dünyaya səs salan bir zəfər oldu. 44-günlük bir müharibə ilə yenidən yazıldı tarix. Dövlətimizin ən ali atributu olan Bayrağımız şəhidlik qanı ilə yenidən al rəngə boyandı, ürəklərdə nisgil şamı yandı. Ancaq şəhidlik və qəhrəmanlıq simvolu olan yanan məşəl hər qığılcımında şəhidlərin adlarını işıqları ilə ətrafa, sanki dünyaya səpələdi. Günəş bu qığılcımdan od aldı, içıq aldı. Ruhları göylərdə məskən salan şəhidlərimiz günəşin şəfəqləri ilə yer kürəsinə daima istinad etdi, yağı tapdağından azad olan torpaqlara həyat istisi bəxş etdi. Əsir qalan məkanlara isə tezliklə azad olacağı mesajlarını səpələdi. Səpələdi ki, vətən sevgili vətənpərvər oğullar tarixi sərvətlərimizi və tarixi məkanlarımızı özümüzküləşdirmək missiyasının davamını düşünsünlər və düşüncə tərzi ilə həyata baxışlarını kökləsinlər!







Tarix unudulmamalı... təkrarlanmamalı.Əksinə həmişə yenilənməli, tarixi köklər qorunmalı, millilik yaşadılmalı. Elə bu yolda aparılan mübarizə davam edir. 44 günlük müharibənin Zəfər tarixi öz zəfərli addımlarını daima davam etdirir. Acı məğlubiyyətlə barışmayan düşmən ideologiyası öz mənfurluqları dolu siyasətlərini daima davam etdirirlər. Ancaq rəşadətli ordumuz, igid, vətənpərvər əsgər oğullarımız onlara həmişə lazımi "dərs" verir, alçaqlıqlarını sübut etdirlər. Müharibədən sonra baş verən terror hadisələri, sərhəd zonalarında baş verən toqquşmalar buna sübutdur.

Müharibə qurtardıqdan sonra da hər il erməni mənfurları çoxlu sayda terror hadisələri etmişlər. Xüsusilə hər il sentyabr ayında toqquşmalar baş verib. Ancaq onlar lazımi cavablarını almışlar. Bəli, hər bir törətdikəri cinayət hadisələrinin cavabını almışlar və alırlar. Doğrudur, bu hadisələr zamanı bizim igid oğullarımız da şəhid olmuş, torpaq uğrunda canlarını qurban vermişlər. Vətənpərvər, qorxmaz fədailər xalqımızın qan yaddaşıdır. Onlar heç vaxt unudulmur. Onlar haqqında kitablar yazılır, qəzet və jurnallarda müxtəlif səpgilərdə yazı materialları dərc olunur, filmlər çəkilir, mahnılar bəstələnir.

Rayonumuzda əslən qəbələli olub başqa məkanlarda yaşayan ailələrin şəhid övlarlarını, həm də başqa məkanlarda dəfn olunanları nəzərə alsaq 50-ə yaxın şəhid vardır. Bu şəhidlərin xatirəsi rayonun müxtəlif təbəqəli insanları- vəzifəsindən, doğulduğu məkandan asılı olmayaraq vətənpərvər insanlar tərəfindən həmişə yad edilir. "Qəbələ" qəzeti hər bir nömrəsində şəhidlər, qazilər və müharibə iştirakçıları haqqında zarisofkalar, reportajlar, oçerklər dərc edir, vətənpərvərlik və milli-ənənəvi zənginlik ideyalarını təbliğ edir.

Redaksiyamıza bu günlərdə daxil olan məktublardan birində Tikanlı kənd uşaq bağçasının musiqi bölməsinin rəhbəri Mərcan Mabudova rayonumuzun şəhidləri, işğaldan azad olmuş torpaqlarımız haqda öz ürək sözlərini ifadə etmişdir.

**Xan kəndim-tarixən bizim yurdumuz,**
**Neçə onillərlə əsir oldun sən.**
**Səni azad etdi şanlı ordumuz,**
**Yenə də bizimki, yenə bizimsəm.**

**Dünya başdan başa zərxara olsa,**
**Yenə də vətəndir insana gözəl**
**"Haylar" səslərini göyədək salsa,**
**Qarabağ bizimdir - əzəl və özəl!**

Belə məktublar vətənpərvərlik mövzusunu nəsr və nəzmlə yazılmış halda redaksiyamıza daima ünvanlanır.

Şəhidlər haqqında yazılan kitablar haqqında məlumatlar verilir. Qəzet səhifələrində yalnız 44 günlük müharibə iştirakçıları deyil, I Qarabağ müharibəsi şəhidləri və qaziləri haqda da maraqlı yazılar dərc olunmuş və olunur.

Şəhidlərin doğum və anım günləri ilə əlaqədar, həmçinin bu münasibətlə keçirilən tədbirlər, ziyarətlər qəzet səhifələrində işıqlandırılır.

Rayonumuzda keçirilən rəsmi tədbirlər, kənd təsərrüfatı, sosial-iqtisadi inkişaf, tarixi günlər, mədəni irs, mədəni-maarif sahəsi ilə bağlı materiallar, bir sözlə, rayonumuzda hərtərəfli həyat və insan məfhumlarının təbliği qəzet səhifələrində öz əksini tapır.

Turizmin inkişafı, tarixi abidələr və qoruqların qorunması ilə bağlı kadrların yazılarının qəzetimizin səhifələrindəki çıxışları da məhz vətənpərvərlik ideyalarından irəli gəlir.

Biz azərbaycanlıyıq, qədim Qəbələ doğma obamız. Vətən hər kəsin öz obasından başlanaraq hüdudlanır, bütövləşir.- Vətənpərvərlik isə bu xalqın qanı və canı-insanlığının ən bariz missiyasıdır. Vətənpərvərliyin isə ünvanı insanların döyünən ürəkləridir.Bu ürəklərin döyüntüsü vətənpərvərliyin ideyaları olmuş və olmalı.

**BİBİXANIM.**

# Xatirələrdə yaşayanlar unudulmur



İnsan yaşlaşdıqca Vətən, xalq sevgisi daha da artır, mükəmməlləşir, xalqın görkəmli şəxsiyyətləri, dövrünün ziyalıları onların nəzərində daim insanlığa xidmət edən şəxsiyyətlər kimi müqəddəsləşir, xatirələri əziz tutulur. Cörkəmli həkim oftalmoloq Zərifə xanım Əliyeva məhz belə şəxsiyyətlərdən biridir. Qəbələ ağsaqqalları bu günlərdə onun Zərifə Əliyeva parkındakı büstünü ziyarət etmişlər.

# Yaddaşlarda yaşayanlar

Vətən məfhumunu anlayanlar üçün yaş həddi olmaz. Çünki Vətən sevgisi insanlarda gendən ötürülən müqəddəs bir hissdir. Məhz bu hisslə yaşayanlar ana-ata qədrini bilər. Ana sevgisi, ata qürurunu dərk edən hər kəs yaşadığı mənanı, torpağı sevər. Vətən də torpaq deməkdir. Torpaq uğrunda ölən varsa o vətəndir. Torpağı vətənləşdirən onun vətənpərvər oğullarıdır. Oğullarda Məmməd Araz deyimilə desək qayalarda mamır olub bitənlərdir. O mamır olub bitənlər isə canlarını Vətənə sipər edənlər, torpaq uğrunda canlarını fəda edənlərdir. Onlar şəhidlərdir. 44 günlük ikinci Vətən Müharibəsində onlarca igid qəbələli gənclər şəhadətə qovuşdular. Bəzən döyüş bölgəsindən də uzaq, hətta neytral zonalarda mənfur düşmənlərlə vuruşurdu onlar. Nəşlərini də doğma torpağa dəfn etmək yalnız Zəfər qazanıldıqdan sonra müyəssər olmuşdu. Onlar kimlərdir?

İdrisov Ruslan (6.VI.2002-28.XI.2020), Qədirzadə Aqşin (10.III.1999-18.III.2020), Musazadə Azər (25.VI.1998-30.XI.2020), Rəhimov Elnur (25.VII.2000-1.XII.2020), Üzeyirov Qoşqar (26.I2002-21.XI.2020.

Bu şəhidlər noyabrın 1-dən sonra Qəbələ torpağında dəfn olunan şəhidlərimizdir.

Noyabrın 17-dən sonra doğum günü olan şəhidlərimiz: Əmiraslanov Ümman-21.XII.1996, Baxışov Hakim-13.XII.2000, Atakişiyev Rüstəm-24.XII.2000, Ağayev Tapdıq-2.XII.1990.

Şəhidlərin doğum günü və anım günü hər il olduğu kimibu il də hər kəsin yaddaşında olmuş, məzarları ziyarət olunmuşdur. Onlar vətənpərvər insanların yaddaşında, qəlbində əbədi məskən salmışlar. Onlar gələcək nəslin örnək və and yerləri,tarixi soykökü, tarixi qəhrəmanlarıdır. Heç kəs unudulmur, çünki tarix tarixliyi ilə yaşayır. Şəhidlər - igid Vətən oğulları isə bu tarixi yazanlar, vətənləşənlərdir. Allah onlara rəhmət eləsin!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**